# Qadın Hüquqlarına Qarşı Göstərilən Təzyiq Dayandırılmalıdır

Çox sayıda multitərəfli təşkilatlarda davam edən müzakirələrdə narahatedici və davam edən bir göstərici yaranıb – qadınların iradəsinə qarşı yenidən sistematik hücumlar. Fədakar ailə qayğıkeşləri, sədaqətli səhiyyə işçiləri və ya reproduktiv funksiyalarını yerinə yetirməyə borclu analar,  alqışlanan qadınlar, özlərinə verilən rolları möhkəmləndirən səhiyyə stereotiplərinin, köhnəlmiş və aldadıcı hekayələri ilə getdikcə daha çox məhdudlaşdırılır və boğulurlar. Amma qadınların gerçəkliyi fərqlidir: onlara zəiflik verilir. Onlara göstərilən diqqət, dövlət maliyyə öhdəliklərinin və digər sosial reproduksiya işləri üçün ayrılan vəsaitlərin kəsilməsi ilə ziddiyyət təşkil edir, bu da qarşılıqsız əməyin böyük bir hissəsini yerinə yetirməyə davam edən qadınlara qarşı olan istismarı daha da artırır [1]. Bu uyğunsuzluq yalnız qadınların öz müqəddəratını təyin etməsini və sosial-siyasi iştirakını pozmaqla qalmır. Eyni zamanda daha dərinç artıq formalaşmış olan ədalətsizlikləri üzə çıxarır və bu, diqqət, təhlil və gündəlik fəaliyyət tələb edir.

Pandemiyada və illərlə davam edən dünyada baş verən müharibələrdən sonra, qadınların öz bədənləri üzərində iradələrini ifadə etmək üçün olan siyasi hüquqları amansız hücumlara məruz qalmağa davam edir. Qadınların hüquqları və rifahına qarşı faktiki hücumlar dünya miqyasında yayılmağa və güclənməyə davam edir. Əfqanıstanda qadınlar amansızcasına ictimai sferadan aralı qovularkən, İranda qadınların cəsarəti dini patriarxiya tərəfindən amansız repressiyalarla nəticələnib. Eyni vaxtda, ABŞ-da hüquqi islahatlar qadınlaraın abort hüququnu məhdudlaşdırır və ümumilikdə cinsi və reproduktiv sağlamlığa çıxışı mümkünsüzləşdirir. [2]. Avropada müzakirə olunan birbaşa zorakılığı dekriminallaşdırmaq və İstanbul Konvensiyasını ləğvi riski daşıyır. Qəzza və İordan çayının qərb sahilində, Birləşmiş Millətlər Təşkilatının institutları və Üzv Dövlətləri, bu günə qədər 34,000-dən çox insanı öldürən (10 may tarixinə qədər) münaqişənin fonunda hələ də iflic vəziyyətindədir – qurbanların çoxunu qadınlar və uşaqlar təşkil edir. Bütün silahlı münaqişələrdə olduğu kimi, eyni hekayə, eyni fəlakət.

Müharibə həqiqətən də patriarxal sistemin məhsuludur. Təcavüz zülmü əsaslandırır və zorakılıq münaqişəni "həll etmək" üçün üstünlük təşkil edən vasitə olur [3]. Bu obsesif dinamikalar qadınların bədənlərini , formalaşmış müharibələrin döyüş meydanına çevirir.

Hətta Ümumdünya Səhiyyə Təşkilatında – Covid-19 pandemiyası zamanı Demokratik Konqo Respublikasında qadın və qızlara qarşı cinsi təcavüzdə günahkar bilinən rəsmilərin hər birinə 250 dollar ödənildiyi bir yerdə [4] – qadın hüquqlarının qorunması və cinsi həssas islahatlara dair son çağırışlarına yenidən qarşı çıxılır [5]. Çoxsaylı beynəlxalq normativ vasitələr və regional mexanizmlərin mövcud olmasına baxmayaraq [6], fundamental cinsi və reproduktiv hüquqlar hələ də açıq hücumlarla üzləşir.

Bu necə əsaslandırılır? ÜST-də bəziləri iddia edirlər ki, cinsi və reproduktiv sağlamlıq hüquqları "siyasi" məsələlərdir və milli hökumətlər tərəfindən həll edilməlidir, çünki bunlar ÜST-nin "texniki" mandatından kənara çıxır. Amma sağlamlıq mahiyyətcə siyasi bir məsələdir – bu, ÜST Konstitusiyası tərəfindən açıq şəkildə etiraf edilir, çünki o, struktur siyasi faktorlar, məsələn, qeyri-bərabər inkişaf və ayrı-seçkilik, sağlamlıq hüququnun əldə edilməsinə maneə kimi isbat edir. ÜST Konstitusiyası həmçinin sülhün, beynəlxalq əməkdaşlığın və hökumətlərin öz xalqının rifahının məsuliyyətinin xalqın sağlamlığı üçün əsas hesab edir. Bu əlaqə fundamental bir sual yaradır: qadın hüquqlarının təşviqi və qorunmasından danışarkən ÜST-nin siyasi əhəmiyyəti narahatlıq doğurarkən, digər həssas siyasi məsələlərdə eyni səviyyədə narahatlıq niyə yaranmır? Ölkələri səhiyyə xərclərini "maliyyə çərçivələri" daxilində saxlamağa təşviq etmək və ya intellektual mülkiyyət hüquqlarının müqəddəsliyində israr etmək, hətta bu siyasətlər zəruri dərmanlara və toxumlara çıxışı maneə törətsə belə, eyni narahat reaksiyaları yaratmır.

Sistematik olaraq sosial qrupların marjinallaşdırılması və təzyiq altına alınması gücün qəbuledilməz bir əlamətidir. Hər cür ədalətsizliklə üzləşən qadınlar və digər marjinal icmalar üçün bu köklü güc geniş şəkildə tanınır və dərinləşmişdir – və adətən patriarxiya adlanır. Dinlərdə və institusional strukturların mirasında dərindən kök salmış patriarxal modellər istifadə etmək asandır və geniş ölçüdə istifadə olunur, elə bir səviyyədə ki, kolonializm, imperializm və populizmin tarixi və hər zaman yenilənmiş bir formada sərgilənir, qəbul edilir və daxilləşdirilir. Bütün bu təzahürlərin mərkəzində səslərin, iradənin və bədən muxtariyyətinin basdırılması dayanır.

Qadınlara və digər azlıqlara multitərəfli sistemdə belə davranılması, sonsuz patriarxal döngünü əks etdirir. Bu, inandırıcı olmayan ritorika və ən yaxşı halda bazanı yüksəltməyə yönəlmiş minimal müdaxilələrlə maskalanır. Çox vaxt isə belə təşəbbüslərdə cəmiyyətin

stereotipik rollarının vəziyyətini sübut edir. Onlar üzv dövlətlərin, qadınlar üçün danışılan sistemdə mövcud olan birbaşa zorakılığın köklərini həll etmirlər – əvəzində qadınlar mülkiyyət kimi hesab edilir!

Dünyada qadınlar çoxluğu təşkil edir. Hər səviyyədə olan siyasi institutlar bu həqiqətti tanımaq və şərəfləndirmək hüquqi öhdəliyə malikdirlər, əksinə, onu pozmaqdan qaçınmalıdırlar. Bütün qadınların bir araya gələrək hökumətləri və kosmopolitan institutları bu dayanıqsız nizamı aradan qaldırmağa çağırmaq üçün birlikdə ümumi mübarizələrini gücləndirmələri vacibdir.

***Credits:***
*We deeply appreciate Nurjan Amirjanova for this thoughtful translation.*
*We're truly grateful for your generosity and the genuine dedication you've shown in supporting this cause.*